**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü Rövşən İsmayılovun 2009-cu il dekabrın 23- də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Ağayev Salman Malık oğlunun 05 yanvar 2010-cu il tarixli 400 saylı müraciətinin araşdırılmasına dair**

**R Ə Y İ**

Bakı şəhəri 10 yanvar 2010-cu il, saat 15.00

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 65 saylı Saatlı-Sabirabad seçki dairəsi üzrə Seyidli bələdiyyəsi üzvlüyünə namizəd Ağayev Salman Malik oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, adı çəkilən dairə seçki komissiyası tərəfindən qanunsuz hərəkətsizliyin edilməsini bildirmiş və qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat" a uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Araşdırma nəticəsində əldə olunan sübutlardan görünür ki, 22 və 29 dekabr 2009-cu il tarixlərdə Salman Ağayevin şikayəti seçki qanunvericiliyinin tələbinə uyğun olaraq, komissiya tərəfindən baxılmış və qəbul olunmuş qərarın maraqlı tərəflərə çatdırılması ilə bağlı müxtəlif tədbirlər görülmüşdür.

Beləliklə də, 65 saylı Saatlı-Sabirabad seçki dairəsi dairə seçki komissiyasının hərəkətsizliyi ilə bağlı irəli sürülmüş iddialar öz təsdiqini tapmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və adıçəkilən Təlimatın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m**:

1. Vətəndaş Ağayev Salman Malik oğlunun 5 yanvar 2009-cu il tarixli 400 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti şikayətçiyə göndərilsin.

Azərbaycan Respublikası
Mərkəzi Seçk Komissiyası
nəzdində ekspert qrupunun üzvü Rövşən İsmayılov